Azərbaycan.- 2021.- 29 oktyabr. S. 7.

**● Mirzə İbrahimov - 110**

**Onun ədəbi qəhrəmanlarının maraqlı, bir çoxunun faciəli həyatı oxucuları kədərləndirir, göz yaşlarına boğur. Ancaq həmin oxucuların çoxu bilmir ki, yazıçı Mirzə İbrahimovun öz ömrü də keşməkeşli olub. Həyat onu uşaqlıq illərindən çox çətin sınaqlardan keçirib...**



# Əbədi sevginin mükafatı

## İtkilərlə, faciələrlə dolu uşaqlıq illəri...

1911-ci il oktyabrın 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Eyvaq kəndində dünyaya gəlib Mirzə İbrahimov. Üç yaşı tamam olmamış anasız qalıb. Yeddi yaşında ikən atası Əjdər kişi onu və böyük qardaşını da götürüb dolanışıq ucbatından Bakıya gəlib. Tale burada da onların üzlərini güldürməyib. 1919-cu ildə neft buruğunda fontanda Əjdər kişi həyatını itirib. Atanasız, ac-yalavac iki uşaq bir parça çörək qazanmaq üçün yollara düşüblər. Böyük qardaş aclığa, yorğunluğa tab gətirə bilməyib. Zabrata çatanda gözlərini əbədi yumub. Bu dünyadakı tək pənahını da itirən balaca Mirzə sarsılıb. Ancaq səkkiz yaşlı uşaq ayağa qalxmalı, Balaxanı və Zabrat kəndlərində muzdurluq edib öz başını dolandırmalıydı. Görkəminə baxıb ona iş vermək istəyən isə yox idi. İllər sonra xatırladırmış ki, balaca və zəif olduğum üçün heç kim məni nökər də götürmürdü. Zabratdakı bəy razılaşanda o qədər sevindim ki, Xalq yazıçısı adını alanda da, ən yüksək vəzifələrə təyin olunanda da bu qədər sevinmədim...

Həmin bəyin qoyunlarını otarıb. Nökərçilik etdiyi evdə balaca əl damında, quru yerdə ac-susuz yatıb. Bəyin üç qızı, bir oğlu varmış. Balaca qızı öz yeməyindən bir az çörək, bir az da pendir ayırıb Mirzəyə gətirirmiş...

Həyat balaca Mirzənin çox sərt müəllimi olub. Ömründən ağır-ağır ötüb keçən çətin günlər onu vaxtından tez böyüdüb.

## İlk təhsil, ilk uğurlar...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1926-1930-cu illərdə həm işləyib, həm də Balaxanı fabrik-zavod məktəbində oxuyub. Bədii yaradıcılığa da elə o zamanlar başlayıb, ilk şeirlərini qələmə alıb. Zabratdakı fəhlə ədəbiyyat dərnəyinə üzv yazılıb. 1930-cu ildə "Aprel alovları" məcmuəsində onun "Qazılan buruq" adlı ilk şeiri işıq üzü görüb. Beləcə, dövri mətbuatda şeirləri dərc olunmağa başlayıb. İlk tənqidi, publisist məqalələri, hekayə və oçerklərini də 1930-cu illərdə qələmə alıb.

1932-ci ildə sosialist sənayesinin coşqun inkişafını, möhtəşəm tikililəri görmək üçün Ukraynaya yollanıb. Donbas şaxtaları, Dnepropetrovsk sənaye müəssisələrində olub. Təəssüratlarını "Qiqantlar ölkəsi" adlı oçerklər kitabında ifadə edib. Mirzə İbrahimov yaradıcılığının ilk dövründə daha çox publisistik və ədəbi-tənqidi yazıları ilə tanınıb.

Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ikiillik hazırlıq şöbəsində təhsil aldıqdan sonra, 1933-cü ildə Naxçıvanda çıxan "Sürət" qəzetinin redaktoru vəzifəsinə təyin olunub.

Öyrənmək, təhsil almaq həvəsi ilə Leninqrada (indiki Sankt-Peterburq) yollanıb. 1935-1937-ci illərdə SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında oxuyub. Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətindən bəhs edən namizədlik dissertasiyasını müdafiə edib.

1942-ci ildə otuz bir yaşlı Mirzə İbrahimov Azərbaycan SSR Xalq Maarif Komissarı vəzifəsinə təyin olunub. 1946-cı ilədək bu vəzifədə çalışıb. 1942-1946-cı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru, sonra isə XKS-nin incəsənət işləri idarəsinin rəisi kimi ölkədə təhsilin və mədəniyyətin inkişafına səy göstərib.

İkinci Dünya müharibəsi zamanı Cənubi Azərbaycanda olarkən "Vətən yolunda" qəzetinin məsul redaktoru vəzifəsində çalışıb. 1942-ci ildə Uzaq Şərqdə Xabarovsk, Vladivostok və digər yerlərdə hərbi dairələrdə 416-cı diviziyanın döyüşçüləri ilə görüşlərdə iştirak edib. Müharibənin ağır illərində o, həm əsərləri, həm də fabrik-zavodlarda, kəndlərdə, hərbi hissələrdə çıxışları ilə düşmənə qəzəbini, nifrətini ifadə edib. Həmin dövrdə, əsasən, Cənubi Azərbaycan mövzusunda yazdığı "Qorxulu səs", "Sənət aşiqləri", "Zəhra", "Yol ayrıcında", "Mələk", "Qaçaq", "Cənub hekayələri" silsiləsi - "On iki dekabr", "Azad", "Tonqal başında", "İztirabın sonu", "İki həyat" adlı hekayələrlə, "Xosrov Ruzbeh", "Güləbətin", "Pərvizin həyatı" povestləri və "Gələcək gün", "Böyük dayaq", "Pərvanə" romanlarını, eləcə də bir sıra səhnə əsərləri yazıb.

Mirzə İbrahimov dramaturgiya yaradıcılığına 1935-ci ildə qələmə aldığı "Həyat" pyesi ilə başlayıb. Sonralar "Madrid", "Məhəbbət", "Kəndçi qızı", "Yaxşı adam", "Közərən ocaqlar" pyeslərini qələmə alıb. Tərcüməçi kimi də fəaliyyət göstərib. U.Şekspirin "Kral Lir", "On ikinci gecə, yaxud hər nə istəsəniz", A.N.Ostrovskinin "Quduz pullar", "Müdrik olan hər kəsə kifayətdir sadəlik", A.P.Çexovun "Üç bacı", A.Satramovun "Kişilərə inanmayın", Molyerin "Don Juan" pyeslərini Azərbaycan dilinə tərcümə edib. Yazıçının öz əsərləri də keçmiş SSRİ-də bir çox xarici dillərə tərcümə olunub.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis olunanda akademiyanın ilk seçilən 15 həqiqi üzvündən biri də otuz dörd yaşlı Mirzə İbrahimov olub. O, elmi kadrların hazırlanmasında da böyük işlər görüb.

İctimai-siyasi fəaliyyətini davam etdirən Mirzə İbrahimov respublika Nazirlər Soveti sədrinin müavini (1946-1950), Ali Sovetin Rəyasət Heyətinin sədri (1954-1958) kimi mühüm dövlət vəzifələrində çalışıb.

O, xeyirxah balaca qızı da uzun illər sonra, Nazirlər Sovetində sədr müavini işlədiyi vaxtlar yenidən görüb. Katibə qucağında uşaq olan çadralı bir qadının onu görmək istədiyini deyib. Mirzə İbrahimov bir zamanlar ona pendir-çörək verən bəyin balaca qızını tanımaqda çətinlik çəkib. Qadın danışıb ki, şura hökuməti qurulanda atası ölkəni tərk etməli olub, qardaşı içkiyə qurşanıb, bacılarının da bəxti gətirməyib. O gün Mirzə İbrahimov ona bacardığı qədər yardım edib. Amma qadın ünvanını verməyib. Yenidən gələcəyini söyləyib və gedib. Və bir daha gəlməyib...

Mirzə İbrahimov Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1965-1975), Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü (1991) seçilib.

O, Azərbaycan EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunun direktoru olduğu dövrdə ədəbiyyatşünaslıq elminin inkişafında, üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin yaranmasında (1946-1954) əməyi böyük olub. 1960-1970-ci illərdə həmin institutda XIX əsr Azərbaycan ədəbiyyatı tarixi şöbəsinə rəhbərlik edib. Ömrünün sonunadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin redaksiya heyətinin üzvü olub.

## Azərbaycan dilinə qarşı biganə yanaşanlara ziyalı münasibəti

Onun yaradıcılığında ana dili mövzusu əhəmiyyətli yer tutur. Mirzə İbrahimov bir sıra əsərlərində, yüksək tribunalarda etdiyi çıxışlarında bu məsələ ilə bağlı problemləri önə çəkib. O yazırdı: "Təəssüflə demək lazımdır ki, son on beş-iyirmi ildə bu cəhətdən kobud təhriflərə yol verilmişdir. Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud azərbaycanca olan bu və ya digər yazılara ana dilində cavab verməyən, ya da bunları tamamilə cavabsız buraxan bürokratlar da tapılır. Belə bürokratlarla mübarizə bütün partiya və sovet təşkilatlarının, bütün vətəndaşların borcudur. Respublikanın dövlət, partiya və ictimai təşkilatlarında Azərbaycan dilinə etinasızlıq göstərən şəxslər kobud səhvə yol verirlər".

1956-cı il avqustun 20-də "Azərbaycan SSR-in dövlət dili haqqında" Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında qanunun qəbul olunmasında Azərbaycan SSR Ali Sovetinin sədri Mirzə İbrahimovun xidmətləri misilsizdir. Onun zəhməti sayəsində Azərbaycan SSR-də fəaliyyət göstərən rus, erməni və gürcü dilli məktəblərdə Azərbaycan dilinin tədrisi rəsmiləşdirilib. Bu qanunun qəbulundan sonra rəsmi Moskvanın sərt münasibətilə üzləşib. Nəticədə, Mirzə İbrahimov həm vəzifəsini, həm deputat mandatını itirməli olub.

Mirzə İbrahimov 1961-ci ildə Xalq yazıçısı fəxri adına layiq görülüb. Ümumiyyətlə, o, dövrünün ən yüksək təltiflərinə - üç dəfə "Lenin" ordeninə, "Oktyabr inqilabı" ordeninə, digər orden və medallara, SSRİ Dövlət mükafatına, Azərbaycan Dövlət mükafatına, Beynəlxalq Nehru mükafatına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Dəfələrlə Azərbaycan SSR Ali Sovetinin, SSRİ Ali Sovetinin deputatı seçilib. 1970-1980-ci illərdə Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri kimi müxtəlif ölkələrdə səfərlərdə olub, beynəlxalq tədbirlərdə iştirak edib.

Mirzə İbrahimov 1993-cü il dekabrın 17-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub. O, bir zamanlar sonsuz sevgi və ehtiramla doğma xalqına üz tutaraq yazmışdı: "Amansız qorxu başımın üstünü alaraq məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar məndən üz döndərdiyi zaman yeganə dayağım sən olmusan. O zaman ki, qaranlıq içərimə kölgə salmağa başlayıb, onda sənin munis, mehriban, müqəddəs səsini eşitmişəm. Bu səs məni həyata bağlamış, yaşamağa, mübarizə etməyə ruhlandırmışdır".

İctimai xadim, yazıçı, alim Mirzə İbrahimov uzun illər belə böyük məhəbbətlə xidmət etdiyi doğma xalqının əbədi sevgisi ilə mükafatlanıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*